## Nəcməddin MÜRVƏTOV



### YAŞAT SƏNƏ İNAMI

Qazanmaq inamı çətindən çətin,
İtirmək çox asan, bircə an işi.
İllərlə yığdığın hörmət-izzətin
Batar, əl yelləyib desən tək "əşşi"

Adi laqeydliyin ola hər kimə,
Barəndə fikrini dəyişər o kəs.
Yarana beynində şübhə, bir himə
Bənddir, adi səhvin buna yetər, bəs.

Kimsən, hansı rütbə, ya mövqeyin var,
Gözdən düşməyə bu fərq eyləməz, yox.
Çoxuyla heç nədən ayrıla yollar,
Mümkün, susmağın da səbəb olar çox.

Bəzən bilməməyin ölçü-biçini,
Durmağın geridə, keçməyin başa.
Edər olanı heç, yekə heçini,
Yaradar bil sənə oyun, tamaşa.

Dayan keşiyində bir əsgər kimi,
Yaşat bu inamı ağıl-kamalla.
Ol söz-əməlinin özün hakimi,
Meyar kimliyinə şəksiz o, anla.

Qazanmaq inamı çətindən çətin,
İtirmək çox asan, bircə an işi.
İllərlə yığdığın hörmət-izzətin
Batar, əl yelləyib desən tək "əşşi".

### MƏNAMI VAR?

Payızına ömrümün qoşuldu fəsil payız,
Artırdı içimdəki duman, çəni, çisgini.
Ağır düşüncələrlə qaldım baş-başa yalqız,
Yoruldum, tapmadım az təsəllini, təskini.

Xəyalımda ömrümdən ötüb keçən illərim
Gözlərimin önündə sıralandı, düzüldü.
Hesabatdı özümə hər birindən dəyərim,
Haqq-hesabla düz-dürüst çözələndi, çözüldü.

Səhvlərimi eylədim təəssüflə etiraf,
Az da olsa varımdı nahaqlarım, günahım.
Heç də mənlik deyildi hər addımda qalam saf,
Kiməm, nəyəm, bilirdi şəksiz, təkcə Allahım.

Andım həm birər-birər az-çox uğurları da,
Şirin xatirələrə dönən xırda anları.
Onlar harada idi, mən indi bax, harada,
Yaşamışam hesabsız zənnləri, gümanları.

Mərəkədə ortada nə var bəhərim, barım,
Kimlərə dəydi xeyrim, ya zərərim, bilir el.
Səmimiyyət, etibar-tükənməzdir bu varım,
Qəlpə verməz bir cınqı, tufan qopa, gələ sel.

Payızına ömrümün qoşuldu fəsil payız,
Vadar etdi düşünəm olan, ötən, keçəni.
Qandım, məkanım gözəl, zaman necə amansız,
Bədbinliyə qapılım?-De, mənа var heç yeni?

### ÇAŞMA, OĞUL

Çaşma oğul, lağ eyləmə sən mənə,
Bil keçmişəm keçəcəyin yolları.
Qanmağımla, ar-abır nə, şərəf nə,
Aramayıb baş soxmağa kolları.

Əməlimdə olmağımdan dürüst, düz,
Qızarmayıb xəcalətdən sifət, üz.
Bir alanda verməyimdən əvəz yüz,
Qucub məni el-obanın qolları.

Anla, dağ, düz, dərəsi var ömrünün,
Saysız bəndi, bərəsi var ömrünün.
Oyununda mərəsi var ömrünün,
Görəcəksən kəsir-kəmi, bolları.

Hər addımda yol aparmır uğura,
Azmaq da var, ağrı köksdə doğura.
Sevincinə ələm qatıb yoğura,
Var Tanrının ana sığan «ol»ları.

Söz, kəlməndə vurmamaqla hey alt-üst,
Qürrələnmə, göstərmə də təşəxxüs.
Biri çıxar qoyar səni naçar, süst,
Kürəyində yaratmaqla zolları.

Məsləhətim:-qəbul eylə, etmə heç,
"Düşün-daşın, tap özünə sifət seç.
Yaşa ömrü, bax bu üzlə bacar keç,
Yek sima ol, yox, oynama rolları".

### İNSAF YOXMUŞ

Bu nə atəş, bu nə yanğı, bu od nə?
Qıydın, qoydun məndə ruha, bədənə.
Adətinmiş dönük çıxıb vədənə,
Həzz-ləzzətlə yaşatmağın həsrəti,
Demə, səndə insaf yoxmuş heç qəti.

Şuxluğunu çevirməklə silaha,
Səbəbsən ki, qəlblərdəki vay-aha,
Qəmin peşkəş, az sevincin çox baha.
Ötürmürsən incitməyə fürsəti,
Demə, səndə insaf yoxmuş heç qəti.

Qaçırmaqla gözlərindən yuxunu,
Oynadırsan bax beləcə çoxunu,
Unutmusan Yaradandan qorxunu.
Sitəmlərin aşkar, bəzən xəlvəti,
Demə, səndə insaf yoxmuş heç qəti.

Düşünmədən əyrisi nə, düzü nə?
Fərq qoymursan danışıqda sözünə,
Acımırsan ürəklərin közünə.
Qazanmısan hardan belə xisləti?
Demə, səndə insaf yoxmuş heç qəti.

Nəşələnmək istəyindən hər zaman,
Eşitmirsən ki, yalvarış, dad, aman.
Neçəsini etməyinlə peşiman,
Artırmısan qəlbindəki xiffəti,
Demə, səndə insaf yoxmuş heç qəti.

Zövq duymağın təşəxxüsdən, qürrədən,
Bitər bir gün, "gələn" olur, bil "gedən".
Dövranında başlanğıc, son, vaxt-vədən
Ömrün nəşə, ağrı-acı müddəti,
Demə, səndə insaf yoxmuş heç qəti.

### ARAYIRAM FÜRSƏTİ

Əlini də sıxmamışam yox hələ,
Bəs nədəndir doğmalığım çox belə?
Söz tapmıram gətirməyə bax dilə.
Qəlbimdəki hiss-duyğunu,həsrəti,
Arayıram görüşməyə fürsəti.

Hər kəlməni havam, suyum sanıram,
Gündə səni dönə-dönə anıram,
Zənn gümanı təsdiqləyir, danıram.
Ovutmağa can yandıran möhnəti,
Arayıram görüşməyə fürsəti.

"Yovuşmazdır"-söyləyirlər adıma,
Beləliyim heç gəlmir ki yadıma,
Diləyim tək-yetişəsən dadıma.
Qurmağınla yaxınlığı, ülfəti,
Arayıram görüşməyə fürsəti.

Gözləyirəm ötür,keçir vaxt, zaman,
Sarır bundan varlığımı sis, duman,
Vurğununam, səndən azca mehr uman,
Bitirməyə köksümdəki xiffəti.
Arayıram görüşməyə fürsəti.

Tək işarən inan, olar yetər, bəs,
Deyəm mənəm xoşbəxtlərdən xoşbəxt kəs!
Gecikmirmi verəcəyin vədə bəs?
Vüsalına, aşkar ya da xəlvəti,
Arayıram görüşməyə fürsəti.

### YAZIM, PAYIZIM

Susub dinləyirəm rişxənd, lağını:
"Sən yaşda olanda görəydin məni."
Payızım seyr edir bahar çağımı,
Yazım, xəzanımı-sis, duman, çəni.

Saçımın ağlığı deyil günahım,
Üzüm, çöhrəmdəki qırışlar da həm.
Şuxluq vəd eləmir gələn sabahım,
Alır nələrisə ötən an, hər dəm.

Laqeydlik, soyuqluq bəbəklərində,
Duruş, baxışından məzəmmət yağır.
Acı kinayələr bol qədərində ,
Töhmətlər olmazın ağırdan, ağır.

Xəyalda aparıb bax o illərə,
Yanında dururam cavan yaşımda.
Qorxuram düşməyə yaman dillərə,
O vaxtki sevda var axı başımda.

Ürək qocalmırmış Vallah heç demə,
Dəyişən əhvalım həm sir-sifətim.
Nə olsun beləcə lazımam kimə?
Yaş artıb, görkəmdə enib qiymətim.

### İTİRMƏ ŞUXLUĞUNU

İtirmə şuxluğunu, yenə deyib gül şadlan,
Çəkmə yox dərd qəmini bunca fani dünyanın.
Gözəllikdir necə gör ətrafında bax hər yan,
Zövq, həzz dadmaqla yaşa, var nə qədər imkanın.

Tanrının qismətidir bil ki sevinc həm də kədər,
Olmuş, olur, olacaq bağlı deyil cəhdə, səyə.
Ağlayıb sızlamağın mənasızdır, vallah hədər,
Təkcə səbəb olar o köksü yaxa, qəddi əyə.

Çırma qol, üstünə get, hirs ilə acizliyinin,
Alma yox, yox nəbadə boynuna məğlubluğunu.
Yol vermə üstələyə ağlını nifrətlə kinin,
Ayırmazsan belədə haqq, ya nahaq olduğunu.

Təsəlli ver özünə, ruhunu hey səbrə çağır,
Şükür et ki gününə bax ki saysız var betəri.
Çəkiblər çoxları çox dərdi çəkdiyindən ağır,
İlahi hökmə görə olmuş, olacaq ötəri.

"Mən qalib olmalıyam"-köklənərək bu inada,
Təmkinlə istədiyin ucalığa, zirvəyə qalx.
Mən verdim nəsihəti, qeyrətinlə sən sına da,
Bax, ordan keçdiyin o zülm, əzablı yollara bax.

İtirmə şuxluğunu, yenə deyib gül, şadlan,
Çəkmə yox dərd-qəmini bunca fani dünyanın.
Gözəllikdir necə gör ətrafında bax hər yan
Zövq, həzz dadmaqla yaşa, var nə qədər imkanın.

